Əhməd Məmmədov – 75

# Alim və müəllim ömrünün vətəndaşlıq qayəsi

**Qədim Borçalı mahalında doğulmuş, Azərbaycanda yüksək elmi-pedaqoji uğurlara nail olmuş, ölkənin tanınmış ziyalıları sırasında yer almış daha bir soydaşımız ömrünün 75 illik hesabatını, yurdsevər və məhsuldar ömür yolunun öyüncünü doğmaları, dostları, həmkarları, çoxsaylı yetirmələri çevrəsində könül xoşluğu ilə paylaşır. Azərbaycan Texniki Universitetinin dosenti, Əməkdar müəllim Əhməd Məmmədovun növbəti yubileyini ölkənin elmi-pedaqoji ictimaiyyəti, bax, belə bir qədirbilənliklə qeyd edir.**

Əhməd Adil oğlu Məmmədov 1949-cu il iyun ayının 9-da Gürcüstan Respublikası Qardabani rayonunun Kosalı kəndində anadan olub. Orta məktəbi dogma kəndində gümüş medalla bitirən gənc soydaşımız 1966-cı ildə Bakıya gəlib, Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) elektrotexnika fakultəsinə daxil olub. Seçdiyi peşənin incəliklərinə həvəslə yiyələnmiş Əhməd 1974-cü ildə ali təhsilini radiotexnika ixtisası üzrə başa vurub.

Əmək fəaliyyətinə ikinci kursdan oxuduğu ali məktəbin ümumi və nəzəri elektrotexnika kafedrasında laborant vəzifəsində başlayan gənc mütəxəssis orduda xidmətdən sonra taleyini birdəfəlik elektrotexnika fakültəsinə və işlədiyi kafedraya bağlayıb. Burada əvəlcə assistent, baş müəllim kimi çalışıb. Dissertasiya müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra isə dosent vəzifəsinə seçilib.

Müəllim, alim, dekan müavini və kafedra müdiri kimi Əhməd müəllim ali təhsilli mühəndis kadrları hazırlığına, elektrotexnika ixtisası üzrə ana dilində dərslik və dərs vəsaitləri yaradılmasına, yeniliklərlə müşayiət olunan elmi tədqiqatlar aparılmasına samballı töhfələr verib. O, “Naqilsiz rabitə texnologiyaları”, “Radiotexniki qurğular”, “Analoq elektron vasitələr” kimi aparıcı ixtisas dərsliklərinin, 40-dan artıq metodik və dərs vəsaitinin, 100-dən artıq elmi məqalənin müəllifidir. Alim respublika və beynəlxalq elmi konfranslarda aktual mövzularda məruzələrlə çıxış edib. Ali təhsil sahəsində uzun illər səmərəli fəaliyyətinə görə Əhməd Məmmədov 2020-ci ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

Ömrünün bar-bəhrəli çağında Əhməd müəllimlə müsahib olub, keçdiyi yola vətəndaşlıq və xalqa xidmət prizmasından baxdıq. Albomunu vərəqləyəndə çoxsaylı şəkillərdə tələbələrin əhatəsində daha xoş əhval yaşadı, məmnun göründüyü diqqətimizdən qaçmadı. Söhbətə də bu məqamdan başladıq.



***– Əhməd müəllim, baxdığımız fotolarda sizi daha çox tələbələrlə nəyisə müzakirə edən vəziyyətdə görürük. Adətən, texniki fənn müəllimləri ciddi, tələbkar olur, tələbələrə zəhmli görkəmləri ilə təsir etməyə üstünlük verirlər. Siz gənclərin əhatəsində şairə, rejissora, musiqiçiyə, rəssama bənzəyirsiniz.***

– Doğru tutmusunuz. Mən öz ixtisasım qədər də ədəbiyyatı, teatrı, musiqini, rəssamlığı sevirəm. Sabahın mühəndisinin sənət zövqü olmasa, onun fəaliyyəti robotdan seçilməz. Yurd sevgisi hər kəsi vətənə daha yaxşı xidmətə həvəsləndirir. Gərək yetirmənə biliklə yanaşı, gözəllik duyğusu da verəsən. Təəssüf ki, tələbədən umacağı olan, ona verdiyindən çox tələb edən üzdəniraq, insafsız müəllimlər də olur. Rabitə sahəsi cəmiyyətə geniş ünsiyyət imkanı qazandırdığına görə buradakı kadrlar da gərək həssas qəlbli, insansevər olsunlar. Dediyiniz şəkillər mənim tələbələrimlə belə söhbətlərimin yadigarlarıdır.

Məndə bu anlayışı elmin və sənətin insan fəaliyyətində qoşa qanad olduğunu bizim nəslə anlatmış dünya şöhrətli kristalloqraf, vətəndaş alim Xudu Məmmədov, gənclərə həyata gözəllik prizmasından baxmağın yüksək örnəyini aşılamış görkəmli filosof Camal Mustafayev, elmi fantaziyasını incəsənənətlə qanadlandıran akademik Azad Mirzəcanzadə, xalqımız üçün yüksək vətənpərvərlik poeziyası yaratmış Bəxtiyar Vahabzadə kimi ziyalılarımıza olan sevgi, onların örnəyi yaradıb. Onlar tələbələrini mənəvi övladları hesab edirdilər. O insanlar xalqımızı da hədsiz məhəbbətlə sevir və Azərbaycanımıza şərəf gətirirdilər. Mən həmişə çalışmışam ki, belə ali soydaşlarımızı tələbələrimə də sevdirim.

***– Gənclik çılğın, bir az təkəbbürlü və tərs olur. Yəqin ki, muğam öyrətməklə elektrotexnikanın, elektronikanın quru, kodlarla ifadə olunan aləmindən mühazirə oxumaq xeyli fərqlidir.***

– İxtisaslarda və onların təlimində fərqlər olsa da, əsas məsələ tələbəyə seçdiyi sahənin “dil”ini öyrətməkdir. Bunun üçün gərək onda maraq yaradasan. Tələbə müəlliminin onda yüksək dəyərlər yaratmaq istəyini duymasa qəlbini açmaz, mühazirəsini dinləməz, heç onunla şəkil də çəkdirməz. Mənim çoxsaylı tələbələrimin hamısı ilə ata-bala münasibətim olub. Yeri gələndə müşküllərinin həllinə də bacardığım köməyi eləmişəm. Onların arasında nazir də var, general da, alim də, Əməkdar mühəndis də.

Ümumiyyətlə, Azərbaycanda ali rabitə təhsili əvvəldən yüksək səviyyədə qurulduğuna görə ölkəmiz bu sahədə dünya öncülləri sırasındadır. Kənar mütəxəssislərə ehtiyacımız yoxdur. Əksinə, dünyanın müxtəlif yerlərində bizim kadrlar uğurla çalışırlar. Gənclərimiz dünən elektrotexnikaya böyük maraq göstərdikləri kimi, bu gün də elektronika və süni zəka sahəsini həvəslə mənimsəyirlər.

***– Sizi böyük dünyaya qanadlandırmış Borçalıya övladlıq borcunuzu necə qaytarırsınız?***

– Borçalı əzəli-əbədi sevgi ünvanımdır. Həmişə sıx əlaqə saxlamışam. Gələnini-gedənini qarşılayıb yola salmışam. Müstəqilliyin ilk illərində soydaşlarımız dogma ellərində basqılara məruz qalanda mən də etirazımı bildirib, köçün qarşısını alanlardan olmuşam. Bu qədim diyarda milli-mənəvi dəyərlərimizin qorunması, zənginləşdirilməsi, problemlərin həllinə kömək mənim də fəalı olduğum “Borcalı” cəmiyyətinin əsas hədəflərindəndir.

Son vaxtlar müəyyən qüvvələrin Borçalının yer adlarını dəyişmək cəhdi məni də kəskin hiddətləndirib. Buna yol vermək olmaz. O adlar min illərin milli möhürləridir. Bu möhür silindisə, Borçalını da Qərbi Azərbaycanın uğursuz taleyi gözləyər.

Mən Borçalıda doğulub böyümüş bir ziyalı kimi bu yurdun övladlarının Qarabağ zəfərinin qazanılmsında göstərdikləri hünərdən öyünc və məmnunluq duyuram. Texniki Universitetlə yanaşı, Ali Hərbi İnstitutda dərs deməyim də ölkəmizin müdafiə qüdrətinin güclənməsinə, hərbi mühəndis kadrları hazırlığına, az da olsa, töhfə verməklə bağlıdır. Ömrümün 75-ci ilinin tamamında ən yüksək duyğu-düşüncələrim də Azərbaycanımızın qalib ölkəyə çevrilməsi, xalqımızın başını dik tutması ilə bağlıdır.

***Tahir AYDINOĞLU***
***XQ***